**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının 03 dekabr 2021- ci il tarixli 17(17) nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının layihələrinin qrant maliyyələşməsi ilə bağlı qrant məbləğinin müəyyən edilməsinin müvəqqəti MEYARLARI

## 1. Ümumi müddəalar

1.1. Bu Meyarlar Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanının 8.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin (bundan sonra – Agentlik) Nizamnaməsi əsasında hazırlanmışdır və Agentlik tərəfindən qeyri-hökumət təşkilatlarının layihələrinin qrant maliyyələşməsi ilə bağlı qrant məbləğinin müəyyən edilməsi meyarlarını müəyyən edir.

1.2. Bu meyarlar Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını, layihələrin qiymətləndirilməsi zamanı şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə qeyri-hökumət təşkilatlarının (bundan sonra – QHT) qrant müsabiqəsinə təqdim etdikləri layihələr üzrə maliyyələşmənin ölçü meyarlarını müəyyən etmək üçün hazırlanmışdır.

## 2. Qrant məbləğinin müəyyən edilməsi meyarları

2.1. Agentlik tərəfindən qeyri-hökumət təşkilatlarının layihələrinin qrant maliyyələşməsi ilə bağlı qrant məbləği aşağıdakı meyarlara əsasən müəyyən edilir:

2.1.1. *Qrant müsabiqəsinə təqdim edilən layihə üzrə tələb olunan büdcə məbləğinin müsabiqə üzrə müəyyən edilmiş maksimal məbləğə uyğunluğu.* Qrant müsabiqəsinə təqdim edilən layihə üzrə tələb olunan büdcə müsabiqə üzrə müəyyən edilmiş maksimal məbləğ həddini aşmamalıdır.

2.1.2. *Qrant müsabiqəsinə təqdim edilən layihə üzrə QHT-nin təklif etdiyi fəaliyyətlərin layihə məqsədləri üçün zəruriliyinin müəyyən edilməsi.* QHT ancaq layihə məqsədlərinə nail olmaq

üçün zəruri fəaliyyətləri təklif etməlidir. Layihə məqsədlərinə uyğun olmayan fəaliyyətlər və xərclər layihələrin qiymətləndirmə prosesində nəzərə alınmamalıdır.

2.1.3. *Qrant müsabiqəsinə yüksək büdcə təklifi ilə müraciət etmiş QHT-nin iş təcrübəsi.* Qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün QHT-nin bu tip layihələrlə iş təcrübəsi, maddi-texniki imkanları, kadr potensialı, dayanıqlı proqram (layihənin idarə olunması) və maliyyə idarəetmə mexanizmlərinə malik olduğu nəzərə alınmalıdır.

2.1.4. *Qrant müsabiqəsinə müraciət etmiş QHT-nin layihə idaretməsi sahəsində müsbət təcrübəsi və Agentliyin maliyyə dəstəyi ilə həyata keçirdiyi layihələrin icra səviyyəsindən məmnunluq.* Qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün QHT-nin əvvəl icra etdiyi layihələrdə uğurlu olduğu layihələrin sayının müraciət etdiyi layihələrin ümumi sayına nisbəti və keyfiyyət göstəriciləri nəzərə alınır.

2.1.5. *Qrant müsabiqəsinə təqdim edilən layihənin icrası üzrə tərəfdaşlığın nümayişi.* Təqdim olunan layihənin icrası prosesinə ərizəçi QHT ilə yanaşı digər partnyor QHT-lərin cəlb edilməsi (və ya koalisiya şəkilində cəlb edilməsi) qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün layihənin qiymətləndirmə prosesində nəzərə alınır.

2.1.6. *Qrant müsabiqəsinə təqdim edilən layihənin işçi heyətinin saxlanılması üçün xərcləri ilə əsas fəaliyyətlər üçün nəzərdə tutulan xərclər arasında mütanasibliyin olması.* Layihənin işçi heyətinin xərcləri ilə yerinə yetiriləcək işlərin həcmi və müddəti arasında uyğunluq olmalıdır. İşçi heyətin xərcləri layihə müddətinə görə deyil, layihə üzrə işlərin həcminə görə müəyyən olunur. Bu, qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün layihələrin qiymətləndirmə prosesində nəzərə alınır.

2.1.7. *Layihə müddətinin şərtlərə uyğunluğu və qarşıya qoyulan məqsədlərin icrası üçün mütənasib olması.* Qrant müsabiqəsinə təqdim edilən layihənin müddəti icra planına, real fəaliyyət şərtlərinə və coğrafiyasına, iş həcminə, risk faktorlarına uyğun seçilməlidir. Bu amillər nəzərə alınmadan layihə müddəti müəyyən edilə bilməz. Layihə müddəti qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün layihələrin qiymətləndirmə prosesində nəzərə alınır.

2.1.8. *Qrant müsabiqəsinə təqdim edilən layihə təklifində qaldırılan problemin aktuallığı.* Qaldırılan problemin cəmiyyət üçün nə qədər aktual olması və aydın təsvir edilməsi qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün layihələrin qiymətləndirmə prosesində nəzərə alınır.

2.1.9. *Layihə məqsəd və nəticələrinin aydın və ölçüləbilən olması.* Layihənin məqsədi aydın, konkret və başa düşülən olmalıdır. Layihə nəticələrinin aydınlığı, onların layihənin əsas məqsədinə çatacağının göstəricisidir. Layihə təklifində nəticələrin aydın yazılması layihənin öz məqsədinə uğurla çatacağına inam yaradır. Nəticələr ümumi və qeyri müəyyən olmamalı,

ölçülə bilən və rəqəmlə ifadə oluna bilən olmalıdır. Bu amil qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün layihələrin qiymətləndirmə prosesində nəzərə alınır.

2.1.10. *Layihə təklifində qaldırılan problemin dayanıqlı həllinin nəzərə alınması*. Layihə təklifində fəaliyyətlərin qaldırılan problemlərin həlli üçün yetərli olması və problemin dayanıqlı həllini sübut edən göstəricilərin təsviri qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün layihələrin qiymətləndirmə prosesində nəzərə alınır.

2.1.11. *Layihə təklifində faydalananların həyatında baş verən dəyişiklərin ölçülə bilən olması.* Layihədə faydalananların aydın təsviri və qaldırılan problemlərin həlli nəticəsində faydalananların həyatında baş verəcək dəyişiklərin ölçülə bilən olması qrant məbləğinin yuxarı həddinin müəyyən edilməsi üçün layihələrin qiymətləndirmə prosesində nəzərə alınır.